

# Biləsuvar sürətli inkişaf yolunda...

**"Biləsuvar rayonuna diqqət daim yüksək səviyyədə olubdur. Bu, mənim Prezident kimi rayona altıncı səfərimdir. Əvvəlki səfərlər zamanı biz bir çox sosial, iqtisadi obyektlərin açılışında görüşmüşük - xəstəxananın, Olimpiya İdman Mərkəzinin tikintisi, məktəblərin açılışı. Bir sözlə, Biləsuvarda sosial-iqtisadi inkişaf uğurla gedir, rayonun infrastruktur layihələri icra edilir, qazlaşdırmanın səviyyəsi 90 faizə yaxındır. Göstəriş vermişəm ki, gələn il Biləsuvar rayonunun qazlaşdırılması 100 faizə çatdırılsın, bu günə qədər həll olunmayan layihələr də icra edilsin".**



Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci il sentyabrın 18-də Biləsuvar rayonuna səfəri zamanı söyləyib. Həmin gün ölkə başçısının iştirakı ilə rayon üçün xüsusi əhəmiyyət kəsb edən Zəhmətabad-Bəydili-Xırmandalı-Əliabad avtomobil yolunun, Gənclər evinin və Bayraq Muzeyinin açılışı ilə əlamətdar oldu. Bunun ardınca isə Biləsuvar şəhərində 48 mənzilli yaşayış, 1176 şagird yerlik məktəb binalarının tikintisi, Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi (81 km) - Biləsuvar avtomobil yolunun yenidən qurulması ilə bağlı sərəncamlar verildi. Bütün bunlar dövlət başçısınn Biləsuvar rayonuna, onun zəhmətkeş insanlarına olan diqqət və qayğısının bariz nümunəsidir.

Artıq indidən əminliklə 2018-ci ili Biləsuvar rayonu üçün uğurlu hesab etmək olar. İlin 9 ayının sosial-iqtisadi göstəriciləri bunu deməyə əsas verir. Bu dövr ərzində ümumi məhsul buraxılışının həcmi adambaşına 2266 manat düşməklə ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,7 faiz artıb. Əsas kapitala yönələn investisiyalar 37,2 milyon manat, pərakəndə əmtəə dövriyyəsi isə 197,9 milyon manat təşkil edib. Nəticədə əhalinin gəliri 223 milyon (adambaşına 2 144) manata çatıb.

Rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Əhalinin məşğulluğu da əsasən bu sahə ilə bağlıdır. Cari il 15 453 hektar sahədən 45 328 ton buğda, 14 185 hektar sahədən 37 469 ton arpa tədarük edilib. Yazlıq əkinlər üzrə 45 107 ton tərəvəz, 1 525 ton bostan, 6 994 ton kartof, 24 723 ton şəkər çuğunduru, 998 ton çəltik, 1 080 ton günəbaxan, 2 582 ton qarğıdalı istehsal olunub. Rayon üzrə iribuynuzlu mal-qaranın baş sayı 41,8 minə, xırdabuynuzlular isə 140 minə çatdırılıb. Tarla-təsərrüfat işlərində 20 min nəfərə yaxın rayon sakini çalışıb, əhali 15 milyon manata yaxın gəlir əldə edib.

**Pambıqçılıq aqrar sektorun prioritet sahəsi elan ediləndən bəri Biləsuvarda həm pambıq əkininin həcmi, həm də məhsul istehsalı xeyli artıb. 2017-ci ildə 11 352 hektar sahədən 24 762 ton məhsul toplanılıb. Cari il isə pambıq əkini 12 min hektara çatdırılıb. Bunun 3 440,8 hektarı "MKT İK" MMC-nin, 3 682,5 hektarı "Azərpambıq" MMC-nin, 1 310,2 hektarı rayon Kənd Təsərrüfatı İdarəsinin nəzdində yaradılmış MMC-nin və 3 566,5 hektarı isə fərdi mülkiyyətçilərin payına düşür. Hazırkı vaxtadək tarlalardan 21 min tondan çox "ağ qızıl" toplanılıb. Son vaxtlar havanın əlverişsiz keçməsinə görə məhsul yığımında məcburi fasilələr yaranır. Lakin pambıqçılar məhsuldarlığa görə ötənilki göstəricini üstələmək əzmindədirlər.**

Rayonda yaradılmış "Yaşıl ada" aqroparkı aqrar sektora yeni nəfəs gətirib. Cari il burada yüksək məhsuldarlıqla 4 141 ton taxıl məhsulları istehsal edilib, 2019-cu ilin məhsulu üçün 1 450 hektar sahədə dənli bitkilərin əkini aparılıb. Bundan əlavə, aqroparkın 519,5 hektar sahəsində pambıq, 70 hektar sahəsində şəkər çuğunduru yetişdirilib. Rayonda daha iki — "Aqroinvestment GreenFirm" MMC və "RULEX" MMC-yə məxsus aqropark da fəaliyyət göstərir. Son vaxtlar onların maddi-texniki bazası gücləndirilib, əkin dövriyyəsinə yeni torpaq sahələri cəlb edilib. Rayonun Əsgərabad kəndində 4 hektar ərazidə aparılan pambıq tədarükü məntəqəsinin tikintisi başa çatdırılıb, emalı müəssisəsinin tikintisi üçün 6 hektar torpaq sahəsi ayrılıb.

Kənd təsərrüfatı məhsullarının istehsalı əkinlərin suvarma suyu ilə təminatından daha çox asılıdır. Son illər bölgədə yayın isti və quraq keçməsi, bir yandan da əkin dövriyyəsinə yeni torpaqların cəlb edilməsi Suvarma Sistemləri İdarəsinin (SSİ) məsuliyyətini daha da artırıb. Hazırda bu qurum 38 909 hektar əkin sahəsinin suvarılmasına xidmət edir. İşin bir çətinliyi ondadır ki, qeyd olunan ərazinin yarıdan çox hissəsinə su nasoslar vasitəsilə çıxarılır. Yaxşı haldır ki, mövcud su ehtiyatlarını zərgər dəqiqliyi ilə bölüşdürməklə idarə bu sınaqdan üzüağ çıxıb.

Cari il Biləsuvar SSİ tərəfindən 956 km baş suvarma kanalı çəkilib, 984 min kubmetr həcmində kanalların lildən təmizləməsi işi yerinə yetirib. Bundan əlavə, mexanizm vasitəsilə 356 km təsərrüfatlararası və təsərrüfatdaxili suvarma kanalı lildən təmizlənib. İdarənin istehsalat binası, 79 ədəd hidrotexniki qurğu, 24 ədəd nasos stansiyası cari, 5 ədəd nasos, 7 ədəd dizel mühərriki isə əsaslı təmir edilib.

Biləsuvar şəhərinin içməli su ilə təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsi üzrə son tamamlama işləri aparılır. Kanalizasiya xətlərinin çəkilişi zamanı bərbad vəziyyətə düşmüş şəhərdaxili küçələrə asfalt-beton örtük çəkilib, bəziləri təmir edilib.

Rayon əhalisinin elektrik enerjisi ilə fasiləsiz və keyfiyyətli təmin edilməsi üçün işlər sürətlə davam etdirilir. Şəhər ərazisində 543 ədəd yeni beton və metal dayaqlar quraşdırılıb, 18 km SİP kabel çəkilib. Əsgərabad kəndində 400 kva və 250 kva olmaqla 2 ədəd elektrik transformatoru, 135 ədəd metal elektrik dirəyi quraşdırılıb. Xırmandalı, Ağayrı və Bəydili kəndlərində elektrik transformatorları yenilənib.

Rayonun 26 yaşayış məntəqəsi tam olaraq təbii qazla təmin edilib. 2018-ci ildə 24 571 m uzunluğunda müxtəlif diametrli qaz xətləri çəkilib.

Azərbaycan təhsili tarixində mütərəqqi ənənələri ilə seçilən Biləsuvar rayonunda 25 tam orta, 10 ümumi orta olmaqla 35 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Bu məktəblərdə 1400 nəfər müəllim 14508 nəfər şagirdin təlim-tərbiyəsi ilə məşğul olur. Rayon təhsil şöbəsinin tabeliyində olan 1 məktəbdənkənar təhsil müəssisəsində 350 şagird müxtəlif istiqamətli məşğələlərə cəlb olunub.

Aparılan məqsədyönlü tədbirlər nəticəsində ümumi təhsilin buraxılış və ali təhsil müəssisələrinə qəbul imtahan göstəricilərində əhəmiyyətli artıma nail olunub. Ötən tədris ilində qəbul imtahanlarında məzunlardan 274 nəfəri ali məktəblərə qəbul edilib ki, onlardan 72 nəfəri 500-dən, 30 nəfəri isə 600 çox bal toplayıb. Ali məktəblərə qəbula görə ən yüksək nəticəni şəhər 1, 2, 4, 6 saylı, Xırmandalı kənd 1 saylı, Dəvrişli, Nərimankənd, Yuxarı Cürəli, Bağbanlar, Bəydili, Çaylı kənd tam orta məktəbləri göstəriblər.

Təlim-tərbiyə şəraitinin yaxşılaşdırılmasına, növbəliliyin azaldılmasına xidmət edən yeni məktəb binalarının inşası, onların müasir avadanlıqlarla, o cümlədən informasiya-kommunikasiya texnologiyaları ilə təchizatı, pedaqoji və rəhbər kadrların seçilib yerləşdirilməsində yeni qaydaların tətbiqi, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, onların əməkhaqqının artırılması, tam orta təhsil səviyyəsində təhsilin təmayülləşməsi, şəffaflığın təmin olunması ümumi təhsilin keyfiyyətinə təsir göstərən amillərdəndir. Son illər rayonda 10 yeni məktəb binası tikilib, 7 məktəb yüksək səviyyədə əsaslı təmir edilib. Yuxarı Cürəli kənd tam orta və Biləsuvar şəhər texniki fənlər təmayüllü internat tipli məktəb-liseyin dam örtüyü təmamilə dəyişdirilib. Muğan kənd ümumi orta məktəbi üçün 100 şagird yerlik modul məktəb binasının tikintisi nəzərdə tutulub. Rayonun ümumtəhsil məktəblərinin informasiya-kommunikasiya texnologiyaları ilə təminatı yaxşılaşdırılıb. Rayonun Xırmandalı kəndində 40 yerlik uşaq bağçasının tikintisi başa çatdırılıb.

Son illərdə idarəetmədə elektron xidmətlərdən istifadə cəmiyyətin sosial, iqtisadi və mədəni həyatının ayrılmaz tərkib hissəsinə çevrilib. Təhsil sahəsində həyata keçirilən islahat səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün genişmiqyaslı tədbirləri nəzərdə tutur. Öyrənirik ki, yerli təhsil şöbəsində idarəetmə, təhlil və proqnozlaşdırma sistemi qurulub, rayonun bütün təhsil müəssisələri yeni hesabatvermə mexanizminə keçib, təhsil işçilərinin əmək müqavilələrinin elektron qeydiyyatı aparılır.

Məktəblilərin asudə vaxtının səmərəli təşkili, onların idman məktəblərindəki dərnəklərə cəlbi, təhsil müəssisələrində tərbiyə işinin təkmilləşdirilməsi istiqamətində görülən işlər də öz bəhrəsini verib. Ötən il Biləsuvar məktəbliləri şahmat, sərbəst güləş, boks idman növləri üzrə respublika yarışlarında 6 qızıl, 7 gümüş, 9 bürünc olmaqla, ümumilikdə 22 medal qazanıb. Cari tədris ilində də bu uğurlar davam etməkdədir.

Heç şübhəsiz, Biləsuvar adı çəkiləndə, bu torpağın yetirməsi, rayonun Əliabad kənd tam orta məktəbinin məzunu, Milli Ordunun hərbi qulluqçusu, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovu xatırlamamaq olmur. O, 2010-cu ildə düşmənin həmləsini dəf edərkən öz şirin həyatı bahasına Azərbaycan əsgərində Vətənə məhəbbət, sədaqət ruhunun hər şeydən yüksəkdə dayanmağının yaxşı nümunəsini yaradıb. Onu da qeyd edək ki, ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə 123 nəfər biləsuvarlı şəhid olub, yüzlərlə gənc sağlamlığını qismən itirərək əlilə çevilib. Bu gün düşmənin atəşkəsi pozmaq cəhdlərinin qarşısını alan Azərbaycan əsgərləri arasında Biləsuvar məktəblərinin məzunları yüzlərlədir. Bu, həm də ondan irəli gəlir ki, rayonun orta ümumtəhsil məktəblərində ibtidai hərbi hazırlığın tədrisi ilə yanaşı, yetişməkdə olan yeni nəslə vətənpərvərlik tərbiyəsi də aşılanır.

Rayonda əhaliyə səhiyyə xidmətinin də yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılır. 134 çarpayılıq mərkəzi xəstəxanada aparılmış əsaslı təmir və yenidənqurma işləri burada daha keyfiyyətli tibbi xidmət göstərilməsinə imkan yaradıb.

Əhalinin asudə vaxtının səmərəli təşkili üçün rayonda müxtəlif mədəni-kütləvi tədbirlər keçirilir. Yerli mədəniyyət mərkəzi Heydər Əliyev adına parkda tez-tez maraqlı konsert proqramları təşkil edir. Bu ilin oktyabrında gənc rəssamların, Biləsuvar və Salyan rayonlarının Dövlət Rəsm Qalereyalarının dərnək üzvlərinin və Uşaq incəsənət məktəbləri şagirdlərinin rəsm əsərlərindən və əl işlərindən ibarət sərgi təşkil edilib. Lənkəran Dövlət Dram Teatrı ilə işgüzar əlaqə qurulub. Məhz bu əlaqəyə görə kollektiv özünün 128-ci teatr mövsümünün açılışını Biləsuvarda edib.

Vətəndaş məmnunluğunun təmin edilməsi, müraciətlərə operativ baxılması üçün Biləsuvar Rayon İcra Hakimiyyəti aparatı həftədə bir dəfə rayon mərkəzində qəbul keçirməklə yanaşı, rayonun idarə, müəssisə və təşkilatları, hüquq-mühafizə və yerli idarəetmə orqanları rəhbərlərinin iştirakı ilə il ərzində yerlərdə 43 səyyar qəbul keçirib. Bu qəbullarda qaldırılan məsələlərin qısa müddətdə öz həllini tapmağı vətəndaşlarda dövlət orqanlarına etimadı artırıb.

**Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev** bu günlərdə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə ölkə başçısı tərəfindən "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib. O, bu ali dövlət mükafatının onun qarşısına çox böyük məsuliyyət qoyduğunu bildirir:

**"Rayonumuzda abadlıq, quruculuq işlərinin davam etdirilməsi, sosial infrastrukturun yenilənməsi, kənd təsərrüfatının, xüsusilə pambıqçılığın inkişaf etdirilməsi, aqroparkların salınması, əhalinin məşğulluğunun təmin edilməsi və yeni iş yerlərinin yaradılması əsas məsələlərimiz olacaqdır. Əhalinin rifah halının daha da yaxşılaşdırılması, ölkə rəhbərinin tövsiyə və tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirilməsi üçün bütün imkanlarımızı maksimum səfərbər edərək daha böyük əzmlə çalışacağıq".**

**Ərəstun ABDULOV,**
**"Respublika".**
















